İqtisadi İslahatların Təhlili və
Kommunikasiya Mərkəzi



# İXRAC İCMALI

Sentyabr 2026

www.ereforms.gov.az
info@ereforms.gov.az

**Azərbaycan iqtisadiyyatı qlobal qeyri-müəyyənlik və geosiyasi çağırışlar fonunda yüksək dayanıqlıq nümayiş etdirmişdir.**

İqtisadiyyatın şaxələndirilməsi strateji hədəflərimizin əsasını təşkil edir və qeyri-neft sektoru iqtisadi artımın əsas hərəkətverici qüvvəsinə çevrilmişdir. 2020-ci ildən etibarən qeyri-neft sektorunda real ÜDM artımı orta hesabla ildə 5 faiz təşkil etmiş, qeyri-neft sənayesi 1,5 dəfə artmış, qeyri-neft ixracı isə təxminən iki dəfə yüksəlmişdir.

Nəticədə 2025-ci ildə qeyri-neft sektorunun ÜDM-də payı 72 faizə çatmışdır.



**Azərbaycan Respublikasının Prezidenti cənab İLHAM ƏLİYEVİN 24 sentyabr 2026-cı il tarixində “İkinci Azərbaycan Beynəlxalq İnvestisiya Forumu”nun iştirakçılarına müraciətindən**

# MÜNDƏRİCAT

2026 İXRAC İCMALI avqust

Qeyri-neft sektoru üzrə ixraca dair məlumat — səh. 3

Qeyri-neft sektoru üzrə əsas ixracatçı subyektlərin reytinqi — səh. 13

“Azərkosmos”a aid xidmət ixracı haqqında məlumat — səh. 16

1

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ İXRACA DAİR MƏLUMAT



## 2026-cı ilin yanvar-avqust ayları ərzində qeyri-neft ixracı 2,81 milyard ABŞ dolları təşkil edib.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi "İxrac icmalı"nın 2026-cı il üzrə sentyabr sayını təqdim edib. İcmala əsasən, 2026-cı ilin yanvar-avqust aylarında Azərbaycanın qeyri-neft sektoru üzrə ixracı (qeyri-monetar qızıl istisna olmaqla) 2025-ci ilin müvafiq dövrü ilə müqayisədə **17,6% artaraq 2,81 milyard ABŞ dolları** təşkil edib.

Cari ilin avqust ayında Azərbaycanın qeyri-neft sektoru üzrə ixracı ötən ilin eyni dövrü ilə müqayisədə 13 faiz artaraq **350,8 milyon ABŞ dolları** təşkil edib. Bu dövr ərzində yeyinti məhsulları üzrə ixrac 80,7 milyon ABŞ dollarına bərabər olub. Qeyri-yeyinti məhsullarının ixracı isə 11,4 faiz artaraq 251,1 milyon ABŞ dollarına bərabər olub.

Cari ilin yanvar-avqust aylarında ixrac olunan şəkər ötən ilin müvafiq dövrünə nəzərən 2,3 dəfə, pambıq iplik 62,2%, alüminium və ondan hazırlanan məmulatlar 42,8%, bitki və heyvan mənşəli piylər və yağlar 30,2%, qara metallar və onlardan hazırlanan məmulatlar 20,5%, pambıq lifi 17,8%, meyvə-tərəvəz 13,7%, çay isə 12,1% artıb.

2026-cı ilin yanvar-avqust aylarında aqrar məhsullar üzrə ixrac 19,2% artaraq 732 milyon ABŞ dolları, aqrar-sənaye məhsulları üzrə ixrac 22,1% artaraq 255,8 milyon ABŞ dolları təşkil edib.

Bütövlükdə aqrar və aqrar-sənaye məhsullarının birgə ixracı 19,9% artaraq 987,8 milyon ABŞ dollarına bərabər olub.

Qeyd olunan dövrdə (qeyri-monetar qızıl istisna olmaqla) ixrac edilmiş qeyri-neft sektoruna aid malların siyahısında qızıl (271,2 milyon ABŞ dolları) birinci olub. Bu siyahıda mis filizləri və konsentratları (183,7 milyon ABŞ dolları) ikinci, tomat (172,2 milyon ABŞ dolları) isə üçüncü yerdə qərarlaşıb.

2026-cı ilin avqust ayı ərzində ixrac edilmiş qeyri-neft sektoruna aid malların siyahısında qızıl (36,8 milyon ABŞ dolları) birinci olub. Bu siyahıda mis filizləri və konsentratları (31,7 milyon ABŞ dolları) ikinci, şaftalı (nektarinlər daxil olmaqla) (29,4 milyon ABŞ dolları) isə üçüncü yerdə qərarlaşıb.

2026-cı ilin yanvar-avqust aylarında (qeyri-monetar qızıl istisna olmaqla) Rusiya Federasiyasına 814,2 milyon ABŞ dolları, Türkiyəyə 435 milyon ABŞ dolları, Gürcüstana 386,5 milyon ABŞ dolları, İsveçrəyə 284,4 milyon ABŞ dolları, Ukraynaya isə 101,1 milyon ABŞ dolları dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunub.

2026-cı ilin avqust ayında Rusiya Federasiyasına 82,5 milyon ABŞ dolları, Gürcüstana 58,5 milyon ABŞ dolları, Türkiyəyə 44,4 milyon ABŞ dolları, İsveçrəyə 37,9 milyon ABŞ dolları, Ukraynaya isə 16,1 milyon ABŞ dolları dəyərində qeyri-neft sektoruna aid mal ixrac edilib.



# 2026-CI İLİN YANVAR-AVQUST AYLARI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI

(2025-ci ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)*

2026
İXRAC İCMALI
sentyabr




* qeyri-monetar qızıl istisna olmaqla

# 2026-CI İLİN AVQUST AYI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI

(2025-ci ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)



# 2026-CI İLİN AVQUST AYI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI
(2025-ci ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)






# 2026-CI İLİN YANVAR-AVQUST AYLARI ƏRZİNDƏ AQRAR VƏ AQRAR SƏNAYE MƏHSULLARININ İXRACI

(2025-ci ilin müvafiq dövrü ilə müqayisə ilə, faizlə)

2026 İXRAC İCMALI sentyabr

- Aqrar məhsullar
- Aqrar-sənaye məhsulları

987.8 mln $

2025/2026 +19.9%



Aqrar məhsullar: 732 mln $ — 2025/2026 +19.2%

Aqrar-sənaye məhsulları: 255.8 mln $ — 2025/2026 +22.1%

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi

# 2026-CI İLİN YANVAR-AVQUST AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ 5 ƏSAS İXRAC ÖLKƏSİ

## (2025-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)*

2026 İXRAC İCMALI sentyabr




* qeyri-monetar qızıl istisna olmaqla

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi

# 2026-CI İLİN AVQUST AYINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ 5 ƏSAS İXRAC ÖLKƏSİ

(2025-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2026 İXRAC İCMALI sentyabr



# 2026-CI İLİN YANVAR-AVQUST AYLARINDA İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI

**(2025-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)***

* qeyri-monetar qızıl istisna olmaqla

2026 | 2025

- Qızıl: 271,2 | 210,7
- Mis filizləri və konsentratları: 183,7 | 24,2
- Tomat (pomidor): 172,2 | 157,2
- Pambıq lifi, daranmaya məruz qalmamış: 148,1 | 124,7
- Meşə fındığı: 105,2 | 87,8
- Mineral və ya kimyəvi azot gübrələri, sidik cövhəri: 105,1 | 114,8
- Ağ şəkər və kimyəvi cəhətdən təmiz digər saxaroza: 91,1 | 39,5
- Şaftalı, nektarinlər daxil olmaqla: 87,3 | 98,7
- Alüminium ərintilərindən qalınlığı 0,2 mm-dən çox olan düzbucaqlı plitələr: 86,5 | 50,4

# 2026-CI İLİN AVQUST AYINDA İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI

## (2025-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2026 İXRAC İCMALI sentyabr

| | 2026 | 2025 |
|---|---|---|
| Qızıl | 36,8 | 32 |
| Mis filizləri və konsentratları | 31,7 | 8,3 |
| Şaftalı, nektarinlər daxil olmaqla | 29,4 | 33 |
| Mineral və ya kimyəvi azot gübrələri, sidik cövhəri | 16,9 | 14,6 |
| Alüminium ərintilərindən qalınlığı 0,2 mm-dən çox olan düzbucaqlı plitələr | 13,6 | 0,4 |
| Metanol (metil spirti) | 13,5 | 7,6 |
| Pambıq lifi, daranmaya məruz qalmamış | 11,7 | 16,6 |
| Ağ şəkər və kimyəvi cəhətdən təmiz digər saxaroza | 11,6 | 8,9 |
| İlkin formalı polipropilen sopolimerləri | 11 | 16,1 |

2

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ



2026-cı ilin yanvar-avqust ayları üzrə hazırlanmış qeyri-dövlət ixracatçı subyektlərin reytinqində ilk onluqda aşağıdakı şirkətlər təmsil olunublar: "Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti"nin Azərbaycan Respublikasındakı Nümayəndəliyi, "Prime Cotton" MMC, "Azərbaycan Şəkər İstehsalat Birliyi" MMC, "Baku Steel Company" QSC, "Prime Export" MMC, "Tabaterra" MMC, "Vvest Stream" MMC, "Agrarco" MMC, "Silk Way Aviaşirkəti" MMC və "P-Aqro" MMC.

Qeyri-neft sektoru üzrə (qeyri-monetar qızıl istisna olmaqla) ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus olan şirkətlərin siyahısına Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin "Marketinq və İqtisadi Əməliyyatlar" İdarəsi başçılıq edir. Daha sonra bu siyahıda aşağıdakı şirkətlər təmsil olunublar: "Azergold" QSC, "Socar Polymer" MMC, "Azəralüminium" MMC, "Azərpambıq Aqrar Sənaye Kompleksi" MMC, "Azərenerji" ATSC, "Azərbaycan Hava Yolları" QSC, "Naxçıvan Enerji" MMC, "Socar Cape" MMC və "Azəripək" ASC.

Bu ixracatçıların reytinqi ilə bağlı məlumatla təqdim olunan infoqrafikalardan tanış ola bilərsiniz.

# 2026-CI İLİN YANVAR-AVQUST AYINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ QEYRİ-DÖVLƏT İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

(ötən ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2026
İXRAC İCMALI
sentyabr



# 2026-CI İLİN YANVAR-AVQUST AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ DÖVLƏTƏ MƏXSUS ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

(ötən ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)



3

# "AZƏRKOSMOS"A AİD XİDMƏT İXRACI HAQQINDA MƏLUMAT



## 2026-cı ilin yanvar–avqust aylarında Azərbaycan Respublikasının Kosmik Agentliyi ("Azərkosmos") tərəfindən dünyanın 36 ölkəsindən olan 95-ə yaxın şirkətə telekommunikasiya xidmətləri göstərilib.

Yeni nəsil xidmət ixracı hesab edilən peyk telekommunikasiya xidmətləri xidmət ixracının şaxələnməsi istiqamətində mühüm rola malikdir.

"Azərkosmos" tərəfindən dünyanın 36 ölkəsindən olan 95-ə yaxın şirkətə ümumilikdə **17,4 milyon ABŞ dolları** dəyərində telekommunikasiya xidmətləri göstərilib. Bu dövr ərzində formalaşan ümumi gəlirlərin 61 faizini ixrac əməliyyatları təşkil edib. Hesabat dövründə peyk telekommunikasiya xidmətlərinin ixracının ilk beşliyində **2,8 milyon ABŞ dolları** ilə Birləşmiş Krallıq, **2,1 milyon ABŞ dolları** ilə Lüksemburq, **874,7 min ABŞ dolları** ilə Türkiyə, **776,5 min ABŞ dolları** ilə Pakistan və **437,2 min ABŞ dolları** ilə Tanzaniya qərarlaşıb.

# 2026-CI İLİN YANVAR-AVQUST AYLARINDA “AZƏRKOSMOS” TƏRƏFİNDƏN 17,4 MİLYON ABŞ DOLLARI DƏYƏRİNDƏ TELEKOMMUNİKASİYA XİDMƏTLƏRİ GÖSTƏRİLİB



**AZERSKY**

Yerin məsafədən müşahidə peyki missiyasını 1 il daha tez, yəni fəaliyyətinin 9-cu ilində başa çatdırdığından optik peyk xidmətləri üzrə məlumatlar cədvəldən çıxarılıb.

Xidmət ixrac etdiyi 5 əsas ölkə



# İQTİSADİ İSLAHATLARIN TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİ

AZ 1073, Bakı ş., Yasamal r., Q. Xəlilov küç., 47
47, Khalilov str., Yasamal district, Baku
Баку, Ясамальский район, ул. Г. Халилова, 47




Azərbaycan Respublikasının
Ədliyyə Nazirliyi tərəfindən
"İxrac İcmalı" jurnalı
11 yanvar 2018-ci il tarixində
N4160 nömrəsi ilə mətbu nəşrlərin
reyestrinə daxil edilmişdir.

Bakı, Yasamal rayonu,
Q. Xəlilov küçəsi 47, AZ 1073
Tel.: (+ 994) 12 521 25 35
info@ereforms.gov.az

www.ereforms.gov.az

/iqtisadiislahat